*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 25 mart 2017-ci il № 22 (2139) Qiyməti 25 qəpik


## Azərbaycan Prezidenti İlham ƏLİYEV:

# Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq

*Martın 18-də paytaxtımızda və bölgələrdə bahar bayramı münasibətilə ümumxalq şənliyi keçirildi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva el şənliyində iştirak edirdilər. Bakıda keçirilən V Qlobal Bakı Forumunun iştirakçıları da bayram tədbirlərinə qatılmışdılar.*



AZƏRTAC-ın verdiyi xəbərə görə, milli geyimli uşaqlar Qız qalasının qarşısındakı meydanda rəqs ediblər. İçərişəhərin qala divarları üstündə və meydanda qədim tariximizi xatırladan qılınc və qalxanlı döyüşçülər dayanıblar. İncəsənət ustalarının baharı, Azərbaycanı tərənnüm edən mahnıların sədaları ətrafa yayılıb.

Bahar qız Azərbaycan Prezidentinə Novruz xonçası təqdim etdi, dövlətimizin başçısına və xanımına bayram münasibətilə təbriklərini çatdırdı. Ulu Dədə Qorqud xeyir-dua verərək, Novruz bayramının xalqımıza ruzi-bərəkət gətirməsini arzuladı.

Prezident İlham Əliyev Novruz tonqalını alovlandırdı, bayram şənliyində nitq söylədi.

Azərbaycan xalqını bayram münasibətilə ürəkdən təbrik edən, ona əmin-amanlıq, yeni uğurlar arzulayan dövlət başçısı dedi: "Azərbaycan dövləti möhkəm milli-mənəvi dayaqlar üzərində qurulubdur. Biz öz mədəniyyətimizi, incəsənətimizi, ana dilimizi, bayramlarımızı qoruyuruq, yaşadırıq. İyirmi beş illik müstəqillik dövrü onu göstərir ki, ancaq milli köklər üzərində qurulmuş dövlətlər uğur qazana bilər və o dövlətlərin gələcəyi var. Azərbaycan dəyərləri, milli-mənəvi dəyərlərimiz bizim üçün hər şeydən üstündür. Şadam ki, gənc nəsil də bu ruhda, vətənpərvərlik ruhunda, milli ruhda tərbiyə alır və bu gün Vətəni sevən hər bir Azərbaycan vətəndaşı haqlı olaraq Vətəni ilə fəxr edir."

Azərbaycanda əldə edilmiş uğurların ölkəmizi gücləndirdiyini, gələcəyə nikbinliklə baxmaq üçün əsas verdiyini deyən Prezidentimiz vurğuladı ki, ölkəmizdə daxili vəziyyət sabitdir. "Bu sabitliyin qarantı, təminatçısı Azərbaycan xalqıdır, xalq-iqtidar birliyidir. Bizim siyasətimiz xalq tərəfindən dəstəklənir və sabitliyin əsas amili də məhz budur.

Bu gün regionumuzda, dünyada yaşanan xoşagəlməz hadisələr, qanlı toqquşmalar, müharibələr, əlbəttə ki, bizi çox narahat edir. Çünki biz təcridolunmuş vəziyyətdə yaşamırıq, bizim bölgəmizdə əgər vəziyyət gərginləşirsə, risklər artırsa, əlbəttə ki, bizə də bunun mənfi təsiri ola bilər. Ona görə bizim əsas vəzifəmiz ölkəmizi, xalqımızı mövcud olan və gələcək risklərdən qorumaqdır və biz buna nail oluruq. Ona görə bu gün ölkəmizdə yaşanan sabitlik, əmin-amanlıq, vətəndaş birliyi, həmrəyliyi, əlbəttə ki, bizim böyük sərvətimizdir və biz bunu qoruyuruq. Yenə də qeyd etmək istəyirəm, bunu ancaq xalq-iqtidar birliyi qoruya bilər."

Prezident Fransaya uğurlu rəsmi səfərindən də söz açdı. "Mənim səfərimi izləyən vətəndaşlar gördülər ki, ölkəmizə çox böyük hörmət, çox böyük maraq var. Biz həm siyasi, həm iqtisadi, həm enerji sahələrində və digər sahələrdə uğurlu əməkdaşlıq edirik. Onu da qeyd etməliyəm, Azərbaycan postsovet məkanında yeganə ölkədir ki, Avropa İttifaqına üzv 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalayıb."

Prezident İlham Əliyev Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə də toxundu və bu problemin Azərbaycan dövlətinin xarici siyasətinin əsas məsələsi olduğunu bildirərək təəssüf hissilə qeyd etdi ki, bu məsələnin həlli istiqamətində ciddi irəliləyiş yoxdur. "Mən bunun səbəbləri haqqında dəfələrlə bildirmişəm. Ermənistan sülh istəmir, status-kvonu saxlamaq istəyir, işğal edilmiş torpaqlardan çıxmaq istəmir. Ona görə biz və beynəlxalq ictimaiyyət, vasitəçilər onları məcbur etməlidirlər. Bunun başqa yolu yoxdur. Çünki indi Ermənistan danışıqları boykot etməyə çalışır, özünü təcrid vəziyyətinə salır. Vasitəçilər, Minsk Qrupunun həmsədr ölkələri artıq açıq bəyan edirlər ki, tezliklə substantiv, yəni, mənalı danışıqlar bərpa edilməlidir. Ona görə hesab edirəm ki, Ermənistan işğal edilmiş torpaqları işğal altında saxlaya bilməyəcəyini nə qədər tez anlasa, bu, onlar üçün də o qədər yaxşı olacaq. Biz bu vəziyyətlə barışmayacağıq. Biz gücümüzü artırırıq. Hərbi gücümüzü, siyasi gücümüzü, beynəlxalq mövqelərimizi möhkəmləndiririk".

Azərbaycanın nəinki bölgədə, dünya miqyasında da önəmli ölkəyə çevrildiyini deyən dövlət başçısı Ermənistanı bütün ümidlərini itirmiş, depressiyada yaşayan bir ölkə adlandırdı və bunun səbəbini qanunsuz yollarla hakimiyyəti zəbt etmiş kriminal rejimdə gördü.

Dağlıq Qarabağ münaqişəsinin həlli yollarına toxunan Prezident İlham Əliyev bir daha bəyan etdi: "Biz öz səylərimizi davam etdirəcəyik. Dəfələrlə bildirmişəm, bir daha demək istəyirəm ki, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayıb və olmayacaq. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır. Biz ərazi bütövlüyümüzü bərpa etməliyik. Beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Bölgədə vəziyyət bizim xeyrimizə işləyir. İqtisadi, hərbi potensial da aydındır ki, bizim tərəfimizdədir. Keçən ilin aprel hadisələri bunu bir daha göstərdi. Ona görə biz daha da güclü olmalıyıq, daha da güclənməliyik və bunu edirik."

Əgər aprel döyüşlərinə qədər onlar öz mifoloji fəaliyyətlərində müəyyən dərəcədə uğurlar qazana biliblərsə, Azərbaycan rəhbərinin sözlərinə görə, aprel döyüşləri onların təbliğatına ciddi zərbə vurub, erməni cəmiyyətini sarsıdıb. O sarsıntının fəsadları orada bu günə qədər hiss olunur. Aprel hadisələri orada dərin hərbi və siyasi böhrana gətirib çıxarıb. "Bu, hələ qısamüddətli döyüşlər idi. Ona görə onlar düzgün nəticə çıxarmalıdırlar və bilməlidirlər ki, biz bu vəziyyətlə heç vaxt barışmayacağıq. Nəyin bahasına olursa-olsun, ərazi bütövlüyümüzü bərpa edəcəyik. Bunu etmək üçün, əlbəttə ki, biz uğurlu siyasət aparırıq, hər gün, hər il biz o günü yaxınlaşdırırıq. Bilirsiniz ki, Azərbaycan bayrağı bu gün Lələtəpədə və Ağdərədə dalğalanır, Şuşada da, Xankəndidə də dalğalanacaq."

**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyinin rəhbərliyi Novruz bayramı münasibətilə hərbi hospitalda olub





*Müdafiə Nazirliyinin rəhbər heyəti Novruz bayramı ilə əlaqədar Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub. Ümummilli lider Heydər Əliyevin hərbi tibb müəssisəsinin həyətində ucaldılan abidəsi önünə gül dəstəsi qoyulub və ehtiram ifadə edilib.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov hospitalda müalicə alan şəxsi heyətlə görüşərək onların səhhəti ilə maraqlanıb, hərbi qulluqçulara bayram sovqatları təqdim edilib və tezliklə sağalaraq xidmət yerlərinə qayıtmaları arzu olunub.



Sonra hərbi qulluqçuların ailə üzvləri, hərbçi və mülki qadın əməkdaşlara yüksək səviyyədə tibbi xidmətin göstərilməsi üçün nəzərdə tutulan, son texnoloji nailiyyətlərə əsaslanaraq müasir avadanlıq və cihazlarla təchiz edilmiş doğum şöbəsinin açılışı olub.

Tibbi heyətlə görüşən nazir onları bayram münasibətilə təbrik edib, uğurlar diləyib, müraciət edənlərə yüksək peşəkarlıq və qayğı ilə xidmət göstərilməsi ilə bağlı tapşırıqlar verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyinin rəhbərliyi ön xətdə olub

*Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti ön xətdə yerləşən hərbi hissələrdə olub.*

Düşmənlə bilavasitə üzbəüz səngərlərdə döyüş növbətçiliyi aparan hərbi qulluqçuları Novruz bayramı münasibətilə təbrik edən Müdafiə naziri Ali Baş Komandanın ordu quruculuğuna göstərdiyi yüksək diqqət və qayğının nəticəsi olaraq son vaxtlar əldə olunan nailiyyətləri diqqətə çatdırıb.

Ön xətt mövqelərində vəziyyətlə bağlı məruzələri dinləyən Müdafiə naziri müdafiənin dayanıqlığını, texnika və silahların, bölmələrin döyüş hazırlığı səviyyəsini, maddi-texniki bazanın vəziyyətini, eləcə də döyüş növbəsinin təşkilini yoxlayıb və qarşıda duran vəzifələri dəqiqləşdirib.



Sonra hərbi qulluqçulara bayram sovqatları təqdim edilib və nahar süfrəsi arxasında söhbət aparılıb. Nazir şəxsi heyətin sosial-məişət şəraiti, mənəvi-psixoloji vəziyyəti ilə maraqlanıb, düşmənin istənilən fəaliyyətinin qarşısının dərhal və qətiyyətlə alınması ilə bağlı komandanlığa müvafiq göstərişlər verib.

* * *

Düşmənlə təmas xəttində yerləşən hərbi hissələrə davam edən səfəri zamanı Müdafiə Nazirliyinin rəhbərliyi bilavasitə ön xətdə yerləşən bölmələrdə müdafiənin təşkilini yoxlayıb.



Bölmələrdən birində komanda müşahidə məntəqəsinə baş çəkən Müdafiə naziri general-polkovnik Zakir Həsənova müasir qurğuların tətbiqi ilə qarşı tərəfi daimi və fasiləsiz müşahidə edən sistemin fəaliyyəti, onun atəş sistemi ilə əlaqəsi, eləcə də istehkam manеələrinin təkmilləşdirilməsi barədə məruzə edilib.

Səngərlərdə döyüş növbəsi çəkən şəxsi heyəti bayram münasibətilə təbrik edən nazir, hərbi qulluqçuların Vətənə, xalqa, dövlətə sədaqətlə xidmət etmələrinin müqəddəs borc olduğunu xatırladaraq, onlara işğal edilmiş torpaqlarımızın azad edilməsi uğrunda hər an döyüşə hazır olmalarını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti, fotolar Natiq İSAYEVİNDİR**

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***24 mart 2017-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 109 dəfə pozub.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan Respublikası İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə, Noyemberyan rayonunun Şavarşavan, Voskevan, Barekamavan və Berdavan kəndlərində yerləşən mövqelərdən Qazax rayonunun Cəfərli, Fərəhli, Quşçu Ayrım, Qaymaqlı və Kəmərli kəndlərində, Berd rayonunun Çinari, Ayqepar, Mosesqex, Ayqedzor kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağbulaq, Əlibəyli, Ağdam və Muncuqlu kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Qaravəllər kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Ağdam rayonunun Qaraqaşlı, Yusifcanlı, Baş Qərvənd, Cəvahirli, Mərzili, Şıxlar, Şirvanlı, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan, Aşağı Veysəlli, Qaraxanbəyli, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Xocavənd, Füzuli və Cəbrayıl rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# Novruz bayramı hərbi hissələrdə "Açıq qapı" günü ilə birgə qeyd edildi

*Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin göstərişinə əsasən, martın 20-də hərbi hissələrdə "Açıq qapı" günü tədbiri keçirilib.*

Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin rəhbər heyəti ümummilli liderimiz Heydər Əliyevin Puta qəsəbəsində yerləşən hərbi hissənin ərazisində ucaldılan abidəsini ziyarət edərək gül dəstələri qoyub və ehtiramlarını ifadə ediblər.

Sonra nazir əsgər valideynləri və yaxınları ilə görüşərək Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tapşırığına əsasən, Silahlı Qüvvələrdə həyata keçirilən islahatlar, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə görülən işlər, yeni inşa edilən hərbi şəhərciklər və digər məsələlər barədə söhbət edib.



Ziyarətçilər hərbi hissədə əsgərlərin yaşayış və məişəti üçün yaradılan şəraitlə tanış



olaraq xidməti və inzibati binaları gəzib, bayram münasibətilə təşkil edilən konsert proqramında iştirak etdikdən sonra əsgər yeməkxanasında nahar ediblər.

Keçirilən tədbirdən və hərbi hissədə şəxsi heyət üçün yaradılan şəraitdən məmnun qalan valideynlər dövlətimizin başçısına Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğıya görə minnətdarlıqlarını ifadə ediblər.

* * *

Vətənimizin hər yerində olduğu kimi, Silahlı Qüvvələrimizdə də əziz bayramlarımızdan olan Novruz əsl el şənliyi kimi qeyd edildi.

Hələ səhərin erkən çağlarından əsgər valideynləri və yaxınları hərbi hissənin nəzarət-buraxılış məntəqəsinin qarşısında toplaşmağa başladı. Övladları ilə görüşə gələn valideynlərlə yanaşı, şəhid ailələrinin, dövlət təşkilatlarının, ictimaiyyətin nümayəndələri, məktəblilər zabit və əsgərlərimizlə görüşə gəlmişdilər.

"N" hərbi hissəsində, sözün həqiqi mənasında, bayram ovqatı duyulmaqdaydı. Nəzarət-buraxılış məntəqəsindən hərbi hissənin qərargahına doğru gedən yol boyunca hər birimizin qürur yerimiz olan üçrəngli bayraqlarımız asılmış, meydança bayramsayağı bəzədilmişdi. Tribunanın qarşısında masa və stullar düzülmüş, ortada səmənilər qoyulmuş, bayram ənənəsinə uyğun olaraq tonqal da hazırlanmışdı.

Tədbirin vaxtına az qalmış qonaqlar meydançada öz yerlərini tutdular. Çıxış üçün öncə söz alan zabit Rasim Manafov Novruz bayramı münasibətilə hərbi hissənin şəxsi heyətini və qonaqları təbrik etdi, xoş arzularını bildirdi.

Tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun bayram münasibətilə hərbi hissənin şəxsi heyətinə ünvanlanmış təbriki oxundu. Zabit, gizir, çavuş və əsgərləri əlamətdar gün münasibətilə təbrik edən, hər kəsə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətlərində yeni müvəffəqiyyətlər arzulayan nazirimiz bildirirdi ki, ordumuzun şəxsi heyəti Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və ictimai-siyasi hazırlıqda yeni uğurlar əldə edəcək, Silahlı



Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə ərazi bütövlüyümüz bərpa olunacaqdır.

General-mayor Xaqani Cəbrayılov da şəxsi heyəti və qonaqları Novruz bayramı münasibətilə təbrik etdi. Natiq dövlət rəhbərliyinin ordu üçün yaratdığı yüksək şəraitlə valideynlərin, ölkə ictimaiyyətinin yaxından tanış edilməsini vacib addım kimi dəyərləndirdi.

Doğrudan da, "Açıq qapı" günü, əslində, ordu ilə cəmiyyət arasında sıx əlaqələrin yaranmasına, Silahlı Qüvvələrimizin ölkə vətəndaşları arasında nüfuzunun daha da möhkəmlənməsinə, hərbi hissələrimizdə baş verən müsbət dəyişikliklərin geniş təbliğinə hesablanmış tədbirdir. Necə deyərlər, həm göstərməyə, həm də iftixar hissi keçirməyə yetərincə əsas var.

Gəncə hərbi prokuroru ədliyyə polkovniki Əmrah Mehdiyev də çıxış edərək Bahar bayramı münasibətilə toplaşanları təbrik etdi, onlara xidmətdə və həyatda uğurlar, xoşbəxtlik dilədi.

Gəncə Qarnizonu Zabitlər Evinin bədii kollektivinin yüksək zövqlə hazırladığı ədəbi-bədii kompozisiya hərbçilər və qonaqların ürəyincə oldu, alqışlarla qarşılandı.

Ziyarətçilər hərbi hissənin yataqxanası, hamamı, məişət otaqları, yeməkxanası ilə yaxından tanış oldular. Təmiz və səliqəli əsgər çarpayılarına diqqət yetirən ata və analar övladları üçün yaradılmış şəraitdən razı qaldılar.

Qonaqlar və valideynlər əsgərlərlə birlikdə nahar etdilər. Onların bir neçəsindən əsgər yeməyinin keyfiyyəti barədə xəbər aldıqda gördüklərindən çox razı qaldıqlarını söylədilər.

Doğrudan da, hər cür qayğı ilə əhatə edilmiş Vətən oğulla-



rına yalnız can-başla xidmət etmək qalır. Xalqımızın əziz bayramına həsr edilmiş "Açıq qapı" günü həm hərbi hissənin şəxsi heyəti, həm də qonaqlar üçün unudulmaz və əlamətdar hadisəyə çevrildi.

* * *

Səhərdir. Havadan təbiətin gözəl qızı Baharın xoş ətri duyulur. Hərbi hissənin ərazisindəki təmizlik, səliqə-sahman göz oxşayır. Tumurcuqlayan ağaclar, yamyaşıl gül kolları yazın gəlişindən xəbər verir. "Açıq qapı" günü başlayır. Əsgər valideynləri və yaxınları, "N" hərbi hissəsinin şəxsi heyəti, ictimaiyyət nümayəndələri, Qarabağ müharibəsi veteranları və şəhid ailələri tədbirin keçiriləcəyi meydana toplaşırlar.

Əvvəlcə "N" hərbi hissəsinin zabiti polkovnik Elşad Əbilov tədbir iştirakçılarını salamladı, Novruz bayramı münasibətilə onları təbrik etdi, milli-mənəvi dəyərlərimizin, adət-ənənələrimizin qorunub saxlanmasında ümummilli liderimiz Heydər Əliyevin böyük rolundan, əvəzsiz xidmətlərindən danışdı.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənovun şəxsi heyətə ünvanladığı təbrikini oxumaq üçün söz Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Həbib Məmmədova verildi.

Şəxsi heyəti, ziyarətçiləri və qonaqları Novruz bayramı münasibətilə təbrik edən general-mayor Mais Bərxudarov xalqımızın əsrlərdən bəri yaşatdığı Novruz ənənələrinin əhəmiyyətini, birliyə, sülhə, firavanlığa səsləyən məqamlarını, milli-mənəvi köklərimizə bağlılığını xatırlatdı. "Bu gün torpaqlarımızın 20 faizi düşmən işğalındadır. Bir milyondan artıq həmvətənimiz öz ata-baba yurdundan qaçqın və köçkün düşüb. Qarabağ dərdimiz var. Siz o torpaqların azad olunması üçün döyüş, fiziki və mənəvi-psixoloji hazırlığınızı daim artırmalısınız. Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin əmrinə hər an hazır olmalıyıq. Əlbəttə, keçən ilin aprel döyüşləri də bir daha göstərdi ki, biz işğalda olan torpaqlarımızı hər an, hər dəqiqə Ali Baş Komandanın əmri ilə azad etməyə qadirik. O gün olsun ki, biz Novruz şənliklərimizi, Böyük Qələbə bayramımızı o torpaqlarda qeyd edək. Novruz tonqallarını Qarabağımızda alovlandıraq".

(Ardı 4-cü səhifədə)

AZƏRBAYCAN ORDUSU

# Novruz bayramı hərbi hissələrdə "Açıq qapı" günü ilə birgə qeyd edildi

(Əvvəli 3-cü səhifədə)



Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynov tədbir iştirakçılarını, ordumuzun bütün şəxsi heyətini bayram münasibətilə təbrik edərək bildirdi ki, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində ordu quruculuğu daha da inkişaf edir, daha da müasirləşir və qüdrətlənir. Günü-gündən ordumuzun maddi-texniki bazası möhkəmlənir, yeni-yeni müasir hərbi şəhərciklər salınır. Bu gün hər bir Azərbaycan vətəndaşı ordumuzla qürur duyur. Bunlar aprel döyüşlərində öz təsdiqini bir daha tapdı.

Tədbirdə aprel döyüşlərində igidlik, cəsurluq nümunələri göstərərək torpaq uğrunda canından keçən Ruhin Qəhrəmanovun atası Əşrəf Qəhrəmanov və Qarabağ müharibəsi veteranı Məmməd Məmmədov çıxış edərək hər zaman Ali Baş Komandanın ordunun yanında olduqlarını bidirib, şəxsi heyətə şəhidlərimizin qisasını birlikdə alacaqlarını çatdırdılar.

Novruz bayramı münasibətilə keçirilən "Açıq qapı" günü Beyləqan rayon mədəniyyət evinin kollektivinin təşkil etdiyi konsert proqramı ilə davam edib. Meydanda Novruz tonqalları çatıldı. Oğuz elinin ağsaqqalı Dədə Qorqud məclisə təşrif buyuraraq Vətəni qoruyan oğullara öyüd-nəsihətlərini verdi. Xalqımıza birlik, əmin-amanlıq, sülh, firavanlıq, torpağa bağlılıq və onu sevməyi tövsiyə etdi. Novruz bayramının simvolu olan Bahar qız, Keçəl və Kosa maraqlı çıxışları ilə tədbir iştirakçılarında xoş ovqat yaratdı. Hərbçilərimizin nümayiş etdirdiyi xüsusi hərbi oyunlar və təlim çıxışları alqışlarla qarşılandı.



Qonaqlara hərbi hissənin keçdiyi şanlı döyüş yolundan qısa məlumat verildi. Onlar ərazidə salınan müasir hərbi şəhərciklə yaxından tanış oldular. Hərbi hissənin silah və texnikasına baxış keçirdib, əsgərlərin yaşayış və məişət otaqlarını bir-bir gəzdilər. Qonaqlar, əsgər valideynləri, yaxınları şəxsi heyətin ərzaq və əşya təminatı ilə, eyni zamanda ideoloji otaqda yaradılan şəraitlə, xidməti və inzibati binalarla da yaxından tanış oldular.

Sonda ziyarətçilər ordumuza göstərilən diqqət və qayğıya görə ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və "Açıq qapı" günlərində övladlarının xidmət şəraiti ilə tanış olmağa imkan yaradan Müdafiə naziri general-polkovnik Zakir Həsənova minnətdarlıqlarını bildirdilər.

* * *

"N" hərbi hissəsində keçirilən "Açıq qapı" günündə general-mayor Hikmət Həsənov bildirib ki, hərbi hissə yenicə istifadəyə verilib. Ali Baş Komandan İlham Əliyevin diqqət və qayğısı, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun göstərişləri ilə əsgərlərimizin məişət şəraiti ən müasir standartlarla təşkil olunub. O, qonaqları hərbi hissə ilə tanışlığa dəvət edib. Qonaqlar əsgərlərin sosial-məişəti ilə yaxından tanış olub, əsgər yataqxanası, hamam və yeməkxanası, eləcə də hərbi hissənin qərargahına baş çəkiblər.

Əsgər Cabir Əliyevin atası Qalib Əliyev Azərbaycan əsgəri üçün yaradılan mükəmməl şəraitdən çox razı qaldığını bildirərək qeyd edib ki, Azərbaycan Ordusu Qarabağın tezliklə azad olunacağına əminlik yaradır. "Əsgər yataqxanalarındakı təmiz çarpayılar, müasir məişət şəraiti, evdə bişirilən yeməklərdən heç də fərqlənməyən qida rasionu, ən müasir silah-texnika, sözün əsl mənasında, insana mənəvi rahatlıq verir.

Tədbir valideynlərin iştirakı ilə sıra meydanında davam edib. General-mayor Hikmət Həsənov əlamətdar gün münasibəti ilə şəxsi heyəti təbrik edərək bildirib ki, Azərbaycan Ordusu qısa zaman ərzində böyük inkişaf yolu keçib. "Bunun başlıca səbəbi ölkə rəhbərliyinin göstərdiyi diqqət və qayğıdır. Ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Ali Baş Komandan İlham Əliyev də ordunun inkişafına və döyüş qabiliyyətinin artırılmasına böyük diqqət göstərir.

Bu gün regionda öz sözünü deyən Azərbaycan Ordusu ermənləri və onların havadarlarını qorxu içində saxlayır. Və bütün dünya bilir ki, Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etməyə qadirdir. Azərbaycan Silahlı Qüvvələri tarixi vəzifənin öhdəsindən gəlməyə tam hazırdır, müstəqilliyimizi əbədi qorumaq, ərazi bütövlüyümüzü bərpa etmək gücündədir."

Şəxsi heyət qarşısında çıxış edən polkovnik Oruc Abdullayev "Açıq qapı" günü və Novruz bayramı münasibətilə şəxsi heyəti, qonaqları təbrik edərək bildirib ki, belə tədbirlər ordu ilə cəmiyyət arasında vəhdətin gücləndirilməsinə, xalqın ordumuzda gedən inkişafı öz gözü ilə görməsinə imkan yaradır. "Əsgər məişətinin beynəlxalq standartlar səviyyəsində inkişafı üçün bütün zəruri addımlar atılır. Ordu quruculuğuna dair bütün mühüm tədbirlər müvəffəqiyyətlə, ardıcıl surətdə, mövcud siyasi kursun tələblərinə uyğun şəkildə yerinə yetirilir. Ordumuzda hərbi vətənpərvərlik əhval-ruhiyyəsi yüksəkdir. Azərbaycan Ordusunun mütəşəkkilliyi sahəsində görülən irimiqyaslı işlər ictimaiyyət tərəfindən də razılıqla qarşılanır."

Tədbirin sonunda general-mayor Hikmət Həsənov və digər zabitlər, valideynlər və əsgərlər bir süfrə arxasında nahar ediblər.

Tədbir konsert proqramı ilə davam edib.

* * *

"Açıq qapı" günü cəbhə xəttində yerləşən hərbi hospitalda da öz təntənəsi ilə yadda qalıb. Novruz bayramına xas olan atributlarla bəzədilən ərazidə tonqal qalanıb, bayram konserti təşkil olunub. Xalqımızın qədim adət-ənənələrini, milli dəyərlərini özündə yaşadan Novruz bayramı günündə respublikamızın müxtəlif guşələrindən gəlmiş əsgər valideynləri və yaxınları, ictimaiyyətin nümayəndələri, müharibə veteranları və təhsil işçiləri tədbirdə iştirak ediblər.

General-mayor Hikmət Həsənov Bahar bayramı münasibəti ilə hər kəsi təbrik edib, onlara möhkəm cansağlığı, uzun ömür, ailə səadəti arzulayıb. Sonra zabit əsgər valideynlərini və yaxınlarını hospitalda yaradılan şəraitlə tanış edib. Hospitalın müasir tibb avadanlıqları ilə təchiz olunduğunu bildirən general-mayor burada təcrübəli həkimlər tərəfindən əsgərlərə nümunəvi xidmət göstərildiyini qeyd edib.

Sonra valideynlər, qonaqlar əsgərlərlə birlikdə bayram tonqalının ətrafında rəqs ediblər.



Valideynlər övladlarına göstərilən tibbi xidmətdən razı olduqlarını vurğulayaraq Ali Baş Komandana və Müdafiə nazirinə təşəkkürlərini çatdırıblar.

Əsgər atası Abid kişi "Açıq qapı" günündə iştirak etmək üçün Bakı şəhərindən gəlib. "Oğlum Samirin şanlı ordumuzun sıralarında xidmət etməsindən qürur hissi keçirirəm", - valideyn deyib.

- Hərbi hissələrdə "Açıq qapı" günlərinin təşkil olunması Müdafiə nazirinin həm valideynlərə saygısının, həm də əsgərlərə olan yüksək qayğısının göstəricisidir. Bu gün hərbi hospitalın müayinə otaqlarını gəzərək tibbi avadanlıqlarla yaxından tanış oldum. Təmiz və səliqəli müayinə otaqları, müasir tibb avadanlıqları və peşəkar zabitlərimizlə tanışlıq övladlarımızın etibarlı şəkildə qorunduğunu bir daha sübut etdi.

Əsgər anası Səbinə xanım da oğlu İmaməddinin görüşünə gəlib. O da hərbi hospitalda yaradılan şəraitdən razılığını bildirərək, əsgərlərin sağlamlığının əmin əllərdə olduğunu bildirib.

- Mən fərx edirəm ki, oğlum Azərbaycan Ordusunda xidmət edir. Hospitalda həm ən müasir tibbi avadanlıqlar var, həm də həkimlər əsgərlərə öz övladları kimi qayğı göstərirlər. Bundan əvvəl oğlumun xidmət etdiyi "N" hərbi hissəsində də "Açıq qapı" günündə iştirak etmişəm. Orada yeməkxana, hamam-camaşırxana xidməti, yataqxana ilə yaxından tanış olmuşam. Bütün əsgər valideynləri adından deyə bilərəm ki, bu gün hərbi hissələrdə övladlarımız üçün hər cür şərait yaradılıb.

* * *

Tədbir davam edir...

1-ci dərəcəli kapitan Natiq Bağırovla söhbətləşməyə imkan yaranır:

- "Açıq qapı" günü ordu ilə cəmiyyətin münasibətlərini daha da dərinləşdirir, qarşılıqlı inamı, etibarı, güvənci daha da artırır. Böyük coşqu ilə keçən bu tədbir valideynləri də, matrosları da sevindirir. "Açıq qapı" günü onlara əsl bayram ovqatı yaşadır. Bayram süfrəsi matroslara da, valideynlərə də könül xoşluğu verir...

Raidə Zeynalova Gədəbəydən gəlib. Oğlu İsmət 9 aydı hərbi xidmətdədi:

- "Açıq qapı" gününü əsgər analarına böyük bayram hədiyyəsi hesab edirəm. Biz analara belə bir ovqat yaşatdığına görə Müdafiə nazirinə minnətdarlığımı bildirirəm. Yəqin ki, bütün analar da mən fikirdədi. Bayram günündə gəldik, oğlumuzu gördük, bayramlaşdıq. Oğlumla həmişə qürurlanmışam. Doqquz aydı qürurum hədsizdi. Qürurlanıram ki, mənim oğlum indi Vətənin oğludu. Onu torpaqlarımızı işğaldan azad edən əsgərlərimizin sırasında görmək istəyirəm.

(Ardı 5-ci səhifədə)

# Novruz bayramı hərbi hissələrdə “Açıq qapı” günü ilə birgə qeyd edildi



(Əvvəli 4-cü səhifədə)

Xatırlayıram ki, İsmətin atası Nemətlə ötən "Açıq qapı” günündə tanış olmuşduq. Onda da Müdafiə nazirinə minnətdar olduğunu demişdi, indi də deyir:

- Oğluma o dəfə də xatırlatmışdım, indi də xatırlatdım ki, belə bir ehtirama, etibara görə matros daha məsuliyyətlə xidmət etməlidir. Elə xidmət edin ki, "Açıq qapı” gününün verdiyi könül xoşluğunu həmişə yaşayaq...

Oğluna öyüdünə görə belə atalarla qürurlanıram, belə ataların öyüdləriycə, hərbi nizamnamələrin tələblərinə uyğun xidmət edən əsgərlərimizlə, matroslarımızla qürurlanıram. "Bu qüruru cəmiyyət də yaşayır" - düşünürəm...

Ananın oğluna, oğlunun timsalında ordumuza inamına, Vətən sevgisinə necə bağır basmayasan? Oğullar belə anaların öyüd-nəsihətiylə əsgərləşib, mətinləşib. Bu öyüd-nəsihətlər əsgər oğulların Vətən sevgisini dönməzləşdirib...

Qərib Süleymanov Şəkidəndi.

- Gəldik, gördük, çox razı qaldıq. "Açıq qapı” günü bizə çox gözəl bayram hədiyyəsi oldu, - deyir. - Zamanında Sovet ordusunda xidmət etmişəm. O illərdəki xidmət hara, bu xidmət hara, o illərdəki şərait hara, bu şərait hara. Adamın könlü açılır. Nəvəm Süleyman da, onun matros yoldaşları da belə şəraitdən olduqca razılıq edirlər. İnanıram ki, onlar komandirlərin əmr və tapşırıqlarını məsuliyyətlə yerinə yetirəcəklər...

...10-12 yaşlı bir uşaq matroslara tərəf qaçır. Əlindəki səmənini qardaşına, qardaşının timsalında Azərbaycan əsgərlərinə sevgisi kimi çatdırmağa tələsir...

Bayram konserti könülləri tellləndirir...

* * *

Azərbaycan xalqı üçün əziz, doğma və ən sevimli bayramlardan biri Novruz bayramıdır. Novruz gəlişi ilə evlərə, ailələrə şadlıq və sevinc gətirir. Anadan olandan hər bir azərbaycanlının qəlbində, ruhunda və fikrində yaşayan Novruz bütün insanları coşdurur, sevindirir və şənləndirir. İnsan nə qədər kədərlənsə də, bu bayramda özünü şən əhval-ruhiyyədə hiss edir.

Bu əhval-ruhiyyə ilə səhər tezdən "N" hərbi hissəsinin nəzarət-buraxılış məntəqəsinə yaxınlaşırıq. Respublikamızın müxtəlif bölgələrindən gəlmiş valideynlər, ictimaiyyət nümayəndələrinin gözlərində də sevinc və fərəh hissi duyulur. Övladları ilə görüşmək, onların xidmət etdiyi hərbi hissə və zabit heyəti ilə yaxından tanış olmaq valideynlərin sevincini ikiqat artırıb.

Hərbi hissənin ərazisinin bayramsayağı bəzədilməsi də insanların ovqatına müsbət təsir göstərib. Bir sözlə, böyükdən-kiçiyə hər kəsin çöhrəsində bir sevinc hissi var. Yüksək səmimiyyət və ehtiramla qarşılanan valideynlərin müşayiəti ilə polkovnik Mehman Kərimov general-leytenant Rövşən Əkbərovu "Farağat" komandası ilə qarşılayır. Hərbi hissənin giriş qapısının yanında düzülmüş zabitlərlə görüşən general onları salamlayır. Ümummilli liderimiz Heydər Əliyevin "N" hərbi hissəsinin həyətində ucaldılmış büstü ziyarət edilir, abidənin önünə gül-çiçək dəstələri qoyulur.

Valideynlərə yaxınlaşan general-leytenant Rövşən Əkbərov Novruz bayramı münasibətilə onları təbrik edir və "Açıq qapı"nın əhəmiyyətini vurğulayır: “Bu əlamətdar bayram - Novruz bayramı ərəfəsində "Açıq qapı" gününün keçirilməsi xüsusi əhəmiyyət daşıyır. Novruz bayramı hər bir azərbaycanlı üçün əziz bayramdır. Hər bir vətəndaş, Azərbaycan torpağında yaşayan hər bir insan bu bayramı öz qəlbində, öz evində, obasında, ailəsində bayram edir. Bu gün sizlərin ailə üzvü olan oğullarınız millət, xalq, dövlət qarşısında öz borcunu yerinə yetirir. Ona görə də bu əziz gündə bayram sevincini bölüşmək üçün hərbi hissəyə təşrif buyurmusunuz. Hərbi hissədə şəxsi heyətin yaşayış və məişəti üçün yaradılan şəraitlə yaxından tanış olmaq, xidməti və inzibati binalara, eləcə də əsgər yataqxanaları və yeməkxanalarına baş çəkmək imkanı əldə edəcəksiniz. Bu gün həm də sizləri narahat edən sualların və maraqlandıran məsələlərin müzakirəsi aparılacaq, konsert proqramları və digər mədəni-kütləvi tədbirlər keçiriləcək."

Hərbi hissə və şəxsi heyət üçün yaradılan şəraitlə tanış olanda valideynlərlə söhbət etmək imkanımız yaranır. Gədəbəy sakini Mahir Məmmədov bildirdi ki, oğlu Arif Məmmədov artıq üç aydır bu hərbi hissədə xidmət edir. “Övladımın xidmət dövrü əsasən qış aylarına təsadüf etdiyindən bir valideyn kimi məni əsas maraqlandıran məsələ əsgərlərin istilik təminatıdır. Bu üç ayda övladımı ziyarət etmək üçün bir neçə dəfə hərbi hissədə olmuşam. Yaradılan şərait, əsgərlərə göstərilən diqqət və qayğı bir valideyn kimi məni sevindirir. Əsgər yataqxanaları istilik sistemi ilə təmin olunmaqla yanaşı, əsgərlər qış geyimləri ilə də yüksək səviyyədə təchiz olunub. Məni təəccübləndirən əsas məsələ odur ki, hərbi hissənin zabit və gizirlərinin nəzarəti və bütün əsgər yataqxanalarının isti su ilə təminatı hesabına şəxsi heyət soyuq su içmir. Bu onların qış aylarında xəstələnməsinin qarşısını alır. Yaradılan şəraitdən və göstərilən bu diqqət və qayğıdan sonra heç bir valideynin narazılığı ola bilməz.



Fürsətdən istifadə edib, Ali Baş Komandana və Müdafiə Nazirliyinin rəhbərliyinə yaradılan şəraitə görə dərin təşəkkürümü və minnətdarlığımı bildirirəm."

- Nəvəm Məmmədəli Əsgərov bu gün əsgər kimi dövlət qarşısında öz borcunu yerinə yetirir, gələcəyin hərbi qulluqçusu olmaq arzusundadır, - deyə Salyan sakini Mikayıl Əsgərov söhbətə başladı. - Məmmədəlinin qardaşı Etibar hərbçi olmaq arzusunu reallaşdırmaq üçün bu pilləkənin ilk pilləsinə qədəm qoyub. Cəmşid Naxçıvanski adına Hərbi Liseyi bitirən Etibar Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin birinci kursunda oxuyur. Məmmədəli də bu yolun, Ümummilli Liderimizin qeyd etdiyi kimi, şərəfli yolun yolçusu olacaq. Bu yolda nəvələrimə uğurlar arzulayıram. Eyni zamanda arzu edirəm ki, Silahlı Qüvvələrimizin Qələbə sevincini yaşayanlardan olsunlar.



Söhbətə müdaxilə edən Bərdə rayon sakini Cavad Behbudov Silahlı Qüvvələrimizin tarixi qələbəsinin çox uzaqda olmadığını qeyd etdi. Son illər ordumuzun inkişafı və tarixi aprel qələbəsi də bunu deməyə əsas verir. Bu gün Azərbaycan güclü Silahlı Qüvvələr formaladırmaqla bölgədə öz mövqeyini gücləndirib, Dağlıq Qarabağ problemi beynəlxalq müstəvidə öz həllini tapmasa, inanırıq ki, tezliklə bu ordu xalqımızın arzusunun reallaşdırılmasının təminatçısına çevriləcək.

Hərbi hissənin şəxsi heyəti Novruz bayramının atributları ilə bəzədilmiş sıra meydanında düzülüb. Bayram əhval-ruhiyyəsi təkcə bəzədilmiş sıra meydanında deyil, zabitlərin, gizirlərin, çavuşların, əsgərlərin və meydanın digər bir tərəfində tezliklə övladları ilə görüşmək arzusu ilə alışıb-yanan valideynlərin də gözlərində oxunur.

Tədbir açıq elan olunandan sonra ümummilli lider Heydər Əliyevin və Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarını fəda edən Vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir. Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Rauf Dəmirov Müdafiə naziri general-polkovnik Zakir Həsənovun Novruz bayramı münasibətilə şəxsi heyətə təbrikini çatdırır.

İlk olaraq general-leytenant Rövşən Əkbərov şəxsi heyəti salamlayır və onları xalqımızın əziz bayramı olan Novruz bayramı münasibətilə təbrik edir. Natiq çıxışı zamanı ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyi dövründə xalqımızın öz mənəvi dəyərlərinə sahib çıxdığını və Novruz bayramının ümumxalq bayramına çevrildiyini qeyd edir: "Xalqımızın mənəvi dəyərləri möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyev tərəfindən ən yüksək səviyyədə qorunur və davam etdirilir. Ali Baş Komandanın apardığı məqsədyönlü siyasət, müstəqil respublikamızın iqtisadi potensialının, müdafiə qüdrətinin artması, əhalinin maddi rifahının gündən-günə yaxşılaşması deməyə əsas verir ki, Silahlı Qüvvələrimiz tezliklə torpaqlarımızı işğaldan azad edəcək. İnanıram ki, Azərbaycan Respublikasının Konstitusiyasına, hərbi nizamnamələrə uyğun olaraq xidməti borcunuzu layiqincə yerinə yetirəcək, döyüş hazırlığı və mənəvi ruhun yüksəldilməsində səylərinizi daha da artıracaq, Azərbaycanın dövlət müstəqilliyinin qorunması, işğal olunmuş torpaqlarımızın azad edilməsi naminə döyüşə hazır olacaqsınız. Sizlərə Azərbaycan Respublikasının müstəqilliyi və torpaqlarımızın azad edilməsi yolunda müvəffəqiyyətlər arzulayıram".

Polkovnik Qurban Qurbanov çıxışında qeyd etdi ki, Novruz bayramı ulu əcdadlarımızdan bizə yadigar qalıb. “Bu bayram bizlərə saflıq və nikbinlik aşılayır. Novruz bayramı arzuların həyata keçəcəyinə ən böyük inamdır. Arzular çoxdur. Ancaq xalqımızın ümumi bir arzusu var - düşmən tapdağı altında olan torpaqlarımıza qayıtmaq. Elə bir azərbaycanlı yoxdur ki, harada yaşamasından asılı olmayaraq gözünün önünə Kəlbəcər dağlarını, Şuşa meşələrini, Laçın yaylaqlarını, Ağdam çöllərini gətirməsin. Ömründə bu yerləri görməyən adamların da oralar üçün burnunun ucu göynəyir, desəm, yanılmaram. Vətən birdir, ayrılmazdır, bölünməzdir. Deyirlər Novruz istəkləri çin olur. Ən böyük istəyimiz yuvasından, elindən ayrı düşmüş qardaş və bacılarımızı öz ocaqlarının başında görməkdir. Gün o gün olsun ki, səngərlərdə Vətən keşiyində dayanan igid oğullarımız yağı tapdağında qalan torpaqlarımızı işğaldan azad etsinlər. Bir daha sizi Novruz bayramı münasibətilə təbrik edirəm."

Döyüş tapşırığının yerinə yetirilməsində əldə edilmiş nailiyyətlərə görə bir qrup hərbi qulluqçu fəxri fərmanla mükafatlandırılıb. Valideynlər hərbi hissənin ərazisində nümayiş etdirilən döyüş texnikasına baxıblar.

Tədbir əsgər yeməkxanasında hərbi hissənin nümunəvi orkestrinin maraqlı konsert proqramı ilə başa çatıb...

**"Azərbaycan Ordusu"**

AZƏRBAYCAN ORDUSU

Ovqat

# "Çingiz sıramızdadı..."



*Yazın gəlişini həmişə qəribə duyğularla yaşamışam. Gah qaralan, gah bozaran, gah açılan hava könlümü haldan-hala salıb.*

Nələr düşür yadıma? - doğma ocağından iraq düşənləri xatırlayıram, onların ağrı-acılarını öz ağrı-acısı bilənləri xatırlayıram, bayram ovqatını kövrəkliklə yaşayanları xatırlayıram, nənələrin zümzümələrindən, qımqımalarından süzülənlərin ovqatına xoş ovqat qatmağa meyillənən yeniyetmələrin çılğınlığını xatırlayıram. Və bir də "Ağ atlı oğlan"ların qəlbindən keçənləri xatırlayıram. Bu anları, bu duyğuları builki yazda da belə yaşamaqdayam. Könlüm məni bayram günündə səngərlərə çəkməkdədi. Bayramı səngərlərdə qarşılayanların ruh qardaşı kimi...

Çingiz Qurbanov əsgəriydi. Azərbaycan əsgərinin hər kəlməsi Vətənə bağlı olur; gecələrin səhərini bir istəklə arzulayanlardan biri də Çingiziydi. Vətən naminə, torpaq naminə şəhidliyə hazır olanları da, şəhidləri də yaşanılmış, yaşanılan aylara, illərə mənəvi işıq bilirdi Çingiz. Ömrünün işığını o işıqlara qatmaqda israrlıymış; Mübarizi xatırlayırdı - Mübarizləşirdi. Mübarizləşə-Mübarizləşə bir anı tarixləşdirəcəyi məqama yaxınlaşırmış. Bağanıs-Ayrımı xatırlayırdı - qaşları çatılırdı, Xocalını xatırlayırdı - qəzəbi kükrəyirdi, doğma ocağından, isti bucağından iraq düşənləri xatırlayırdı - varından yox olurdu...

Və ötən ilin 29 dekabrı...

Həmin gün düşmənlə təmas xəttində bir qəhrəmanlıq doğuldu. Bu qəhrəmanlıq Çingiz Qurbanovun hünəriylə, qətiyyətiylə, vətənsevərliyiylə tarixləşdi. Mübariz İbrahimovun qəhrəmanlıq məqamını qəlbində bayraq kimi dikəldən Çingiz düşmənlərlə döyüşdü. Sonda şəhid olacağını bilərək döyüşdü, Azərbaycan əsgərinin adından döyüşdü, şəhidlərimizin ruhunun adından döyüşdü, düşmənin ruhunu çilikləyərək döyüşdü...

Çingiz Qurbanov şəhid oldu...

Əsgər Çingiz Qurbanova Azərbaycanın Milli Qəhrəmanı adı verildi...

Əməkdar İncəsənət xadimi Abdulla Qurbani Çingiz Qurbanova kitab həsr etdi - "Çingiz dastanı". Bu kitabda elegiya çaları da var - qürur çalarına, ehtiram çalarına, qədərsiz sevgi çalarına söykənib bu çalar. Kəlmə-kəlmə "Bir ömür borcluyuq qəhrəmanlara!" - deyir bu kitab...

Novruz bayramıdı.

Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi general-mayor Rasim Əliyev, kitabın müəllifi Abdulla Qurbani səngərdədi. Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun vaxtilə xidmət etdiyi səngərdə əsgərlərin əhatəsində.

General-mayor Rasim Əliyev, Abdulla Qurbani postda Çingiz Qurbanovun xatirəsinə ucaldılmış obeliskin önünə tər güllər qoyurlar, unudulmayan xatirəsini burada da yad edirlər. Səmimi ehtiramdı bu.

General-mayor Rasim Əliyev əsgərlərin şəraiti ilə tanış olur, onlarla səmimi söhbət edir:



- Mənəvi-psixoloji hazırlığınız, döyüş ruhunuz komandirlərinizi də, bizi də inandırır ki, hər biriniz Çingiz Qurbanovun qəhrəmanlığını təkrar etməyə hazırsınız. Şəhidlər ölmür, onlar əbədiyyətin yolçuları kimi bəşərin cığırdaşıdı. Çingiz Qurbanov kimi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun qəhrəmanlığını yüksək dəyərləndirdi. Bu, Çingiz Qurbanova, Çingiz Qurbanovun timsalında Azərbaycan əsgərinə verilən yüksək dəyərdir. Çingiz Qurbanovun adı əbədiləşdirildi. Nə qədər ki, bəşəriyyət var, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun da adı yaşayacaqdır.



Müdafiə naziri general-polkovnik Zakir Həsənovun, Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkovun, Nazirliyin yüksək rütbəli zabitlərinin Çingiz Qurbanovun 40 mərasimində iştirakı da böyük ehtiramın təsdiqiydi. Həmin tədbirdə Müdafiə naziri general-polkovnik Zakir Həsənov "Çingiz dastanı" kitabının ilk nüsxəsini onun atasına bağışladı.

Bayramdı. Bu bayram günündə Müdafiə nazirinin tapşırığı ilə "Çingiz dastanı" kitabını sizə hədiyyə gətirmişik...

Kitabın müəllifi Abdulla Qurbani kitabın mahiyyətindən, yazılma prosesindən, bunu Azərbaycan əsgərinə mənəvi borc bildiyindən söz açır, kitabı "Hər əsgərimiz Mübarizləşəcək, Çingizləşəcək" - inamıyla yazdığını bildirir...

Zabitlərdən Rauf Qasımov, Nizami Ağayev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Elgün Abbasov, əsgər Təmkin Nəbiyev Çingiz Qurbanovun adının əbədiləşdirildiyinə görə Ali Baş Komandana, Müdafiə nazirinə dərin minnətdarlığını bildirirlər. Onlar general-mayor Rasim Əliyevi əmin edirlər ki, Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun yolunu davam etdirməyə hazırdırlar.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun vaxtilə xidmət etdiyi postda zabit və əsgərlərin dedikləri bayram ovqatını bir ürək tutumunca coşdurur: gələn bayramı Şuşada, Cıdır düzündə, işğaldan azad edəcəyimiz bütün ərazilərdə qarşılayacağıq.

Bu kəlmələr Azərbaycan əsgərinin andı kimi səslənir...

...O yüksəklikdə, o ucalıqda "Çingiz dastanı" kitabı zabitlərə, əsgərlərə müqayisəyəgəlməz dəyərli hədiyyə olur; kitab ruh qardaşları haqqındadı. Əsgərlər o ruhun pıçıltısını eşidir sanki: "Sevin Vətəni. Vətəni qoruyun. Torpaqlarımızı işğaldan azad edin..."...

O pıçıltı o yüksəklikdə qərarlaşmazdı. Qətiyyən qərarlaşmazdı. O pıçıltı Vətənin istəyidi!..

"Çingiz dastanı" yüksəklikdə bu səngərdə də oxunacaq...

Vaxtilə Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun xidmət etdiyi səngərdəki əsgərlər "Çingiz yenə sıramızdadı deyirlər..." - düşünürəm...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist**

*Hərbi peşəni seçən, zabit olmaq istəyən gənclərimiz çoxdur. Azərbaycan gənci yaxşı bilir ki, hər sahədə işinin öhdəsindən bacarıqla gələn mütəxəssis Vətənə bağlı ömür sahibidir. Hər il yüzlərlə vətənpərvər gəncimiz zabit peşəsinə yiyələnib hərbi hissə və bölmələrdə xidmətə başlayır.*

Gənc zabitlərimiz

# "Yaddaşımdan silinməyəcək"

Baş leytenant Allahşükür Şahbazovla cəbhə xəttində tanış oluram. Mayor Ramil Əhmədov onu bacarıqlı, vətənpərvər hərbçi kimi təqdim edəndə bir faktı da vurğulayır ki, bu yaxınlarda təcrübəli bölük komandirinə Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən qol saatı hədiyyə olunub. Gənc zabit də söhbətimizə bu hadisənin yaratdığı xoş təəssüratla başladı:

- Bizim bölməyə Müdafiə nazirinin gələcəyini eşidəndə çox sevindim. Tabeliyimdə olan şəxsi heyətin də sevinci yerə-göyə sığmırdı. Fevralın 3-də cənab nazir mövqelərimizə gəldi və hər birimizlə səmimi görüşüb qayğılarımızla yaxından maraqlandı. Müdafiə naziri hər əsgəri dinləyib qayğılarını soruşdu, bizi narahat edən məsələləri öz dilimizdən eşitməyə maraq göstərdi. Bir komandir olaraq şəxsi heyətimizin düşmənə istənilən an cavab vermək üçün ən yüksək hazırlığa malik olduğunu bildirəndə cənab nazir bunun səbəblərini soruşdu. Tərəddüd etmədən şəxsi heyətlə apardığım vətənpərvərlik ruhlu söhbətlərdən danışdım, əsgərlərin döyüş ruhunu artırmaq üçün keçirilən səmərəli tədbirləri misal çəkdim. Müdafiə naziri sıranın qarşısında "Sağ ol!" deyib mənə qol saatı bağışladı. Həmin an heç bilmədim ki, minnətdarlığımı necə ifadə edim. Bu hadisə məni ürəkdən sevindirdi, qürurlandırdı. Mənə verilən mükafata görə, əslində, hər bir əsgərimizə minnətdaram, qazanılan döyüş uğurlarında hamının əməyi, zəhməti vardır.



Gənc zabit danışdıqca necə fərəhləndiyini duyurdum. Və bir həqiqətə tapınırdım ki, o, bacarıqlı, fədakar, ən başlıcası Vətənini, xalqını, dövlətini dərin bir istəklə sevən hərbçidir. Özünün də qeyd etdiyi kimi, qəlbindəki vətənpərvərlik hissi, Mübariz İbrahimov kimi döyüşçülərimizin qəhrəmanlığı onu hərbi peşəyə həvəsləndirib. "Erkən yaşlarımdan düşmənimizi dərindən tanımağa, tarix boyu xalqımızın başına gətirdikləri müsibətləri öyrənməyə səy göstərmişəm. Dərslərimi həmişə yaxşı oxuyurdum, tarix, ədəbiyyat fənlərindən dərs deyən müəllimlərimizin xalqımızın keçmişi, mənəvi dəyərlərimiz barədə söhbətlərinə diqqətlə qulaq asırdım. Beləcə, hərbçi olmağa qərar verdim."

Baş leytenant erkən vaxtlarından əsl zabitə xas olan xüsusiyyətlərə alışıb, qətiyyətli və cəsarətli olmağı öyrənib. "13-14 yaşım vardı, qonşumuzda bir nəfər C.Naxçıvanski adına Hərbi Liseydə oxuyurdu. Hər dəfə onunla qarşılaşanda hərbi mundirinə həsədlə baxırdım. Həmin oğlan təkəbbürlü idi. Deyirdi ki, hər adam hərbçi ola bilməz. Bu sözlər məni yerimdən oynadırdı. Ona bir gün qətiyyətlə dedim ki, mən də zabit olacam".

Baş leytenant qeyd edir ki, bölmədə döyüş vəzifəsinə təyin edilən əsgərlə fərdi tanışlıq əvvəlcə təlim kursunda başlanır. Təlim müddətində əsgərin bütün fərdi xüsusiyyətləri, ailə vəziyyəti hərtərəfli öyrənilir və sonra döyüş vəzifəsinə təyin edilir.

- Əsgərlər döyüş növbətçiliyinə necə hazırlanır? - sualına cavab verən bölmə komandirinə görə, əsgər növbəyə bir müddət hazırlıqlı, təcrübəli silahdaşıyla birlikdə göndərilir. Bu isə həmin əsgərin qısa zaman ərzində praktik vərdişlərə yiyələnməsinə imkan yaradır. "Həmişə bir məqama fikir vermişəm ki, Vətənə sevgisi güclü olan əsgər az vaxtda bacarıqlı döyüşçü kimi formalaşa bilir. Döyüş növbətçiliyi hərbçi üçün ciddi sınaqdır, bu zaman o nəyə, hansı bir məqsədə xidmət etdiyinin fərqində olmalıdır. Əsgərlərimizə aprel döyüşlərini misal çəkirəm, son nəfəsinədək döyüşmüş qəhrəmanlarımızdan söhbət açıram."

Söhbətimizin sonunda özünə silahdaş bilib istənilən vaxt birgə döyüşə atılmağa hazır olan əsgərlərindən danışır, Elməddin Qurbanov, Yusif Adıgözəlov, Kənan Cəfərov, Cəmil Abbaslı kimi gənc əsgərlərin mübarizliyinə güvəndiyini qeyd edir.

**Polkovnik-leytenant Arif PƏNAHOV, "Azərbaycan Ordusu",**
**foto çavuş Namiq PƏNAHOVUNDUR**

*Döyüş hazırlığı*

# Tankçılar da döyüşə hazırdırlar

Ali Baş Komandan İlham ƏLİYEV:

*Bu gün Azərbaycan Ordusu öz üstünlüyünü göstərir. Bizdə olan vətənpərvərlik ruhu, döyüş qabiliyyəti, texniki imkanlar, əlbəttə ki, üstünlüyümüzü şərtləndirir. Azərbaycan Ordusunun arsenalında mövcud olan texnika, silah-sursat Dağlıq Qarabağda və Ermənistanda istənilən hədəfi yüksək dəqiqliklə məhv edə bilər.*





*Səhər qatardan düşüb tank bölməsinə çatanda artıq hava işıqlaşırdı. Hərbi hissədə idarə heyəti ilə yerbəyer keçirilirdi və komandir gün ərzində görüləcək işlər, yerinə yetiriləcək tapşırıqlarla bağlı konkret göstərişlər verirdi. Sonra bölmə komandirləri şəxsi heyətin yanına qayıdaraq günün nizam qaydalarına uyğun olaraq qarşıya qoyulan vəzifələri icra etməyə başladılar.*

Nəzarət-buraxılış məntəqəsində qarşılaşdığım əsgəri qayda-qanun, əslində, hərbi hissədəki nizam-intizamdan xəbər verirdi.

Zabit Rəşad Nəsirovu uzun müddətdir ki, peşəkar və təlabkar hərbçi kimi tanıyıram. Zabit Nəsirov aprel döyüşlərinin iştirakçısıdır. O, həmin əməliyyat zamanı fərqləndiyinə görə dövlət mükafatına təqdim olunub, "Hərbi xidmətdə fərqlənməyə görə" medalı ilə təltif edilib.

- Döyüş hazırlığı planına uyğun olaraq gün ərzində tankçılarımız məşğələlərdə iştirak edir, - bizimlə söhbətində zabit dedi. - Hazırda şəxsi heyət hərbi hissənin meydançasında sıra hazırlığı məşğələsinə cəlb edilib. İkinci dərs zirehli texnika üzərində texniki hazırlığa həsr olunub. Sonra atəş hazırlığı məşğələsi olacaq. Bu dərslər parkda keçiriləcək. Eyni zamanda qarşıdakı günlərdə çöl çıxışları var, şəxsi heyət həmin çıxışa hazırlaşır. Məşğələlər zamanı heyətlər öz taktiki hazırlıqlarını artıracaqlar. Sürücülər tankların idarə edilməsilə, tuşlayıcı-operatorlar atəş hazırlığı ilə məşğul olacaqlar.

Tankçı heyətlər müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından ibarətdir. Onlar Vətənə əsgəri borclarını verdikdən sonra könüllü olaraq hərbi xidmətə qayıdıblar. Həm hərbçi olaraq öz vəzifələrinə məsuliyyətlə yanaşır, həm də tankçı kimi ustalıqlarını günü-gündən artırırlar.

- Hərbi kollektivdə mövcud olan sağlam mühit xidmətin gedişinə də, döyüş hazırlığının yüksəldilməsinə də yetərincə təsir göstərir, - zabit Elvin Həsənov bildirir. - Hamı nə üçün xidmət etdiyini, kimi qoruduğunu dərindən dərk edir. Təcrübəli gizirlər və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları öz vəzifələrini mükəmməl mənimsəyiblər. Onlar döyüş texnikalarını məharətlə idarə etməyi bacarırlar. Dəfələrlə təlimlərdə özlərini peşəkar tankçı kimi sübut etməyi bacarıblar.

Qərargahda zabitlərlə söhbət edərkən ən yaxşıların adlarını çəkdilər. Təbii ki, qazanılmış uğur zabit, gizir və əsgər heyətinin zəhmətinin nəticəsidir. Nümunəvi zabitlərdən bölük komandirləri baş leytenant Orxan Abdullayev, baş leytenant Elçin Abdullayev, taqım komandiri leytenant Sənan Umarov kimi zabitlər nümunə göstərirlər. Məhz belə zabitlərin bilik və bacarığı ilə şəxsi heyət döyüş hazırlığı sahəsində müvəffəqiyyət qazanır. Bu mütəxəssislər hərbi hissədə nizam-intizamı təmin edir, tank heyətlərinin döyüş hazırlığı sahəsində bacarığının möhkəmləndirilməsi üçün əllərindən gələni əsirgəmirlər.

Hərbi hissədə bacarıqlı tank komandirləri, sürücü-mexaniklər, tuşlayıcı-operatorlar da çoxdur. Onların sayəsində döyüş texnikasının hamısı saz vəziyyətdədir. Hər an səfər marşı ilə istənilən məntəqəyə çıxmağa və qarşıya qoyulmuş döyüş tapşırığını yerinə yetirməyə hazırdırlar.

Onu da qeyd edim ki, Müdafiə naziri general-polkovnik Zakir Həsənovun müvafiq qərarına əsasən, hərbi hissədə döyüş və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi məqsədilə ixtisaslar üzrə yarışlar keçirilir. Gizirlərdən Amid Əliyev, Xəyyam Ələkbərov, Vüsal Omarov bu yarışlarda ən yaxşı nəticə qazanıblar. Sürücü-mexaniklər arasında müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Bəhruz Quliyev, Elsevər Poladov, Beyrək Məhərrəmov döyüş texnikasını daha yaxşı idarə etdiklərini sübut etməyi bacarıblar. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları Nurlan Əliyev, Yusif Qasımov və Pərvin Həsənov daha sərrast tuşlayıcı olduqlarını nümayiş etdiriblər.

2016-cı il tankçıların xidmətində daha bir uğurla yadda qalıb. Bütün qoşun növlərinə məxsus hərbi hissələrdə olduğu kimi, tankçılar da ilin sonunda görülmüş işlərə yekun vurublar. Yuxarı komandanlıq səviyyəsində tankçıların hazırlıq səviyyəsi yoxlanılıb. Hərbi hissənin tankçıları birlik səviyyəsində ən yaxşı nəticə göstəriblər. Qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirdiyinə görə, həmçinin yuxarı komandanlıq tərəfindən qoşun xidməti və döyüş hazırlığı vəziyyətinin yoxlanması zamanı hərbi hissə daha yaxşı nəticələr əldə etdiyinə görə tank bölmələri arasında birinci yeri tutub.

- Aprel döyüşlərində də bizim tankçılar iştirak etmişdi, - zabit Kərim Məmmədhəsənov dedi. - İtki vermədən tankçılar döyüş tapşırığını yerinə yetirərək yerləşmə məntəqəsinə qayıtdılar. Fərqlənmiş döyüşçülərimiz müxtəlif mükafatlara layiq görüldülər. Bu, həm də tankçılar üçün bir təcrübə oldu. Yəni, dərslərdə, təlim meydanlarında qazanılan vərdişləri tankçılar döyüş meydanında daha da möhkəmləndirdilər. Düşmən üzərində qazanılmış qələbə şəxsi heyətin döyüş ruhunu daha da artırdı.

Tankçıları fəaliyyət başında görmək, onların ağır və zəhmli döyüş texnikasıyla necə sərbəst davrandıqlarını müşahidə etmək həmişə ürəyimcə olub. Bunun bir səbəbi də odur ki, bu sərbəstliyin arxasında ayların, illərin zəhməti, əziyyəti nəticəsində əldə edilmiş təcrübə və peşəkarlıq dayanır. Bu dəfə də mahir tankçılarımızın işgüzar fəaliyyətini parkda keçirilən dərslər zamanı izlədik. Hiss olunurdu ki, tank komandirləri, sürücü-mexaniklər və tuşlayıcılar öz vəzifələrini yetərincə mənimsəyiblər və təcrübədə yerinə yetirməyi bacarırlar.

Tank heyətlərinin peşəkar mütəxəssislərdən komplektləşdirilməsi tankçılarımızın döyüş hazırlığının artırılmasına bilavasitə təsir göstərən amillərdəndir. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları olan tuşlayıcı-operator və sürücü-mexaniklər isə öz vəzifələrinə daha peşəkarcasına yanaşır və ustalıqlarını artırırlar. İndi elə bir heyət yoxdur ki, vəzifəsini mükəmməl yerinə yetirməyi bacarmasın.

Bəli, bu gün tankçılar döyüş hazırlığı planına uyğun olaraq gündəlik məşğələ və məşqlərdə taktiki-ixtisas bacarıqlarını artırırlar. Döyüş tapşırığı verilərsə, onlar qısa zamanda müəyyən edilmiş məntəqəyə çıxaraq tapşırığı yerinə yetirməyə hazırdırlar.



**Əbülfət QASIMOV,**
**"Azərbaycan Ordusu",**
**fotolar müəllifindir**

# Bayramınız mübarək, Azərbaycan əsgəri!

*Ümummilli liderimiz Heydər Əliyev Novruz bayramı haqqında demişdir: "Novruz bayramı insanlarda həmişə xoş əhval-ruhiyyə yaradır, milli ruhu yüksəldir, vətənpərvərlik hissiyyatlarını daha da möhkəmləndirir və hər bir insanı Vətəninə, millətinə, ölkəsinə, doğma dövlətinə daha da sadiq olmağa dəvət edir. Ona görə də bu bayram Azərbaycanın dövlət müstəqilliyinin və milli azadlığının rəmzidir. Bu bayram əmin-amanlığın, ictimai-siyasi sabitliyin rəmzidir. Bu bayram ölkəmizdə gedən hüquqi, demokratik, dünyəvi, sivil dövlət quruculuğunun rəmzidir".*



Novruz Azərbaycan xalqının ən qədim el bayramlarındandır, milli birliyimizin təcəssümüdür. Bu bayram insanlarda ruh yüksəkliyini, əmək coşqunluğunu, torpağa məhəbbəti artırır. Xalqımız Novruz bayramını qeyd etməklə, həm də öz tarixi keçmişinə, milli dəyərlərinə bağlılığını nümayiş etdirir. Bu bayram hər il Naxçıvan Muxtar Respublikasında da geniş qeyd edilir, xalq yaradıcılığı günləri keçirilir, rəngarəng tədbirlər təşkil olunur.

Novruz bayramı Azərbaycan Silahlı Qüvvələrinin muxtar respublikamızda yerləşən hərbi hissə və bölmələrində də yüksək əhval-ruhiyyədə qeyd edilir. Əlahiddə Ümumqoşun Ordunun hərbi hissə və bölmələrində Novruz bayramı münasibəti ilə silsilə tədbirlər keçirilir.

Tədbirlərdə hərbi hissələrin bədii özfəaliyyət kollektivləri ilə birlikdə mədəniyyət və incəsənət nümayəndələri hərbçilər qarşısında maraqlı çıxışlar edirlər. Novruz şənlikləri zamanı əsgərlərimiz öz sevinclərini şeir, mahnı və rəqslərlə nümayiş etdirirlər.

Əlahiddə Ümumqoşun Orduda Novruz bayramı münasibəti ilə keçirilən silsilə tədbirlər xalq-ordu birliyini bu il də təsdiqləyib. Xalq-ordu birliyi Silahlı Qüvvələrimizi güclü edən əsas amillərdəndir.

Novruz şənliklərini yallısız təsəvvür etmək çətindir. Qətiyyətli qələbə, baharın gəlişi və digər həyati vacib məsələlər bu kimi rəqs nümunələrimizdə dolğun əksini tapıb. Bu gün də ictimaiyyət nümayəndələri ilə birlikdə, əl-ələ verərək xalq-ordu birliyinin təcəssümü olan bayram tonqalı ətrafında yallı gedən əsgərlərimiz torpaqlarımızın müdafiəsində ayıq-sayıq dayanırlar. Hər bir hərbi qulluqçumuzun ən müqəddəs amalı işğal altındakı əzəli torpaqlarımızın azad edilməsi, orada qələbə yallı-rəqsinin oynanılmasıdır. Bayramınız mübarək, Azərbaycan əsgəri!

**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

---



*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin təşkilatçılığı ilə "N" hərbi hissəsində bayram tədbiri keçirilib. Qurumun yaradıcı kollektivi şəxsi heyətin qarşısına rəngarəng konsert proqramı ilə çıxıb.*



Bayram tədbirini giriş sözü ilə açan polkovnik-leytenant Zöhrab İmamquliyev ilk olaraq şəxsi heyəti xalqımızın əziz bayramı olan Novruz münasibətilə təbrik edib, onlara şərəfli işlərində müvəffəqiyyətlər arzulayıb. Natiq çıxışında bu bayramın xalqımıza, taleyimizə təmənnasız bəxş edilən bayramlar sırasında olduğunu qeyd edib: "Bayramlardan elələri vardır ki, insanlar təbiət üzərində öz qələbələrini qeyd etmək üçün yaradılıb. Elə bayramlar da vardır ki, onlar bizə taleyimiz kimi təmənnasız bəxş olunub. Belə gözəl bayramlardan biri də Novruz bayramıdır. Tarixi çox qədim olan Novruz bayramı xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov da Novruz bayramının əhəmiyyətini nəzərə alaraq bayram planı təsdiq edib. Bugünkü bayram şənliyi bu planın tərkib hissəsidir. Məqsəd Azərbaycan əsgərinin mənəvi-psixoloji hazırlığını, asudə vaxtının səmərəli təşkilini, nəhayət, tarixi Qələbənin tezləşdirilməsini təmin etməkdir".

Bayram tədbirinə geniş tərkibli yaradıcı kollektivin təşrif buyurduğunu qeyd edən zabit Bülbül adına Orta İxtisas Musiqi Məktəbinin 7-ci sinif şagirdi, tar ifaçısı Pərvin Vəlizadənin adını xüsusi vurğulayıb: "Mənim yanımda balaca bir oğlan dayanıb. 13 yaşlı Pərvin Vəlizadə. O şəxsi təşəbbüsü ilə Azərbaycan Respublikasının Müdafiə nazirinə məktub ünvanlayıb. Məktubda cənab nazirə xitabən deyilir ki, mənim həyatda ən böyük arzum Azərbaycan əsgərini yaxından görmək və əsgərlər qarşısında çıxış etməkdir. Müdafiə nazirinin göstərişinə əsasən, Pərvin Vəlizadə "Açıq qapı" günü tədbirində - Müdafiə Nazirliyi rəhbərliyinin və şəxsən cənab nazirin iştirak etdiyi tədbirdə Ramiz Mirişlinin "Qızlar bulağı" əsərini ifa edib. Bu balaca balamız rəhbərlik tərəfindən qiymətli hədiyyə ilə mükafatlandırılıb."

Tədbirin aparıcıları - Mədinə Məmmədova və Ehtiram Əhmədov baharın gəlişi və adət-ənənələri haqqında məlumat veriblər, Novruz bayramına aid şeirlər deyiblər. Solistlər Ağabala Abdullayev, Leyla Qəhrəmanova, Günay Qasımova, Qoşqar Qasımov, Vüsal Ağayev, Nurşən Məmmədov, Səbinə Qasımova, Fərman Əsgərov, Nigar Rəhimova və rəqqaslar Roza Rzayeva, Vüsalə Babayeva, Emil Paşayev, Elnur Nəbiyev, üllüziyaçı Elmar İbrahimov və başqaları çərşənbələrin rənglərini özündə əks etdirən milli geyimlərdə iştirak ediblər. Tar ifaçısı Pərvin Vəlizadənin ifası isə xüsusi coşqu və sürəkli alqışlarla qarşılanıb. Novruzun atributlarından olan tonqalın qalanması, bu bayramın əsas bəzəyi olan Kosa və Keçəlin gülüş doğuran duzlu-məzəli çıxışları tədbiri daha da şənləndirib.

Polkovnik Mehman Kərimov tədbirə görə general-leytenant Rövşən Əkbərovun və zabitlərin adından Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin rəhbərliyinə minnətdarlığını bildirib: "Novruz bayramı tarixi adət-ənənələri özündə əks etdirən milli bayramımızdır. H.Aslanov adına Mərkəzi Zabitlər Evinin solistlərinin təqdim etdiyi kompozisiyalar, göstərilən nömrələr bir daha bunu sübut etdi. Qonaqlarımız Silahlı Qüvvələrin möhkəmləndirilməsi, nizam-intizamın və mənəvi-psixoloji hazırlığın yüksəldilməsi üçün əllərindən gələni əsirgəmədilər. Cənab Ali Baş Komandan və Müdafiə Nazirliyinin rəhbərliyi şəxsi heyətin təminatını bir nömrəli prioritet məsələ hesab etdiyindən bu gün Azərbaycanın bütün hərbi qulluqçuları üçün ən yüksək şərait yaradılıb. Bundan sonra bizim qarşımızda həlli vacib bir məsələ durur: döyüş hazırlığını daha da artıraraq torpaqlarımızı işğaldan azad etmək. Təbii ki, Silahlı Qüvvələrimiz bunu yerinə yetirmək gücündədir. Aprel döyüşləri dediklərimin sübutudur. Sonda rəhbərlik adından bugünkü tədbiri yüksək səviyyədə təşkil etdiklərinə görə Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin kollektivinə dərin təşəkkürümü bildirirəm."

Axırda yaradıcı kollektivin üzvləri, həmçinin tar ifaçısı Pərvin Vəlizadə hərbi hissənin rəhbərliyi tərəfindən fəxri fərmanla mükafatlandırıldılar.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu"**

**Məsul katib**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti **mod.gov.az** saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 100
Nüsxə 4650